


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 240 (24.377)

*26 dekabr 2023-cü il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər.

Dövlətimizin başçısı "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.



Dövlətimizin başçısı "Ağdam" qovşaq yarımstansiyasını işə saldı.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq beşinci yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yaşayış kompleksi barədə videoçarxa baxdılar.

Dövlətimizin başçısı Ağdam şəhərində beşinci yaşayış kompleksinin təməlini qoydu.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq dördüncü yaşayış kompleksinin təməlinin qoyulması mərasimində də iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma yaşayış kompleksi barədə məlumat verildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yaşayış kompleksi barədə videoçarxa baxdılar.

Dövlətimizin başçısı Ağdam şəhərində dördüncü yaşayış kompleksinin təməlini qoydu.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində "İmarət" Kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq Pənahəli xanın sarayının yerləşdiyi "İmarət" Kompleksinin bərpa edilməsi üçün işlərə başlanılıb.

Kompleksin tam bərpası üçün vəsaitin Qarabağ Dirçəliş Fondu tərəfindən ayrılması nəzərdə tutulur.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhər Mərkəzi parkının təməlinin qoyulması mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma parkda görüləcək işlər barədə məlumat verildi.

Ağdam şəhərinin yeni Baş planına əsasən salınacaq park 5 hektar ərazini əhatə edəcək. Parkın layihəsi Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri nəzərə alınmaqla hazırlanıb.

Prezident İlham Əliyev Ağdam şəhər Mərkəzi parkının təməlini qoydu.

Sonra dövlətimizin başçısı və birinci xanım Mərkəzi parkın ərazisində ağac əkdilər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam şəhərinin daxili yollarında aparılan işlərlə tanış olub.

Bildirildi ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş Ağdam şəhərinin Baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Qiyaslı kəndinin təməlini qoyub.

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Prezident İlham Əliyev Qiyaslı kəndinin təməlini qoydu.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda Xaçınçay su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak ediblər.

Bildirildi ki, Xaçınçay su anbarının 7 kilometr uzunluğunda kanalla birlikdə təmiri və bərpası aparılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva su anbarında görülən işləri əks etdirən videoçarxa baxdılar.

Dövlətimizin başçısı Xaçınçay su anbarını işə saldı.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Salahlı Kəngərli kəndinin təməlini qoyub.

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.



Prezident İlham Əliyev Salahlı Kəngərli kəndinin təməlini qoydu.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə-Ağdam avtomobil yolunun açılışında iştirak edib.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, başlanğıcını Bərdə şəhərindən götürən avtomobil yolunun uzunluğu 44,5 kilometrdir. Avtomobil yolu dörd hərəkət zolaqlı olmaqla, I texniki dərəcəyə uyğun inşa edilib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Baş Qərvənd kəndinin təməlqoyma mərasimində iştirak edib.

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Prezident İlham Əliyev görüləcək işlər barədə videoçarxa baxdı.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün də hər cür şərait yaradılacaq.

Prezident İlham Əliyev Baş Qərvənd kəndinin təməlini qoydu.

**AZƏRTAC**

# Naxçıvanda 1250 ailəyə bayram sovqatı göndərilib

Dekabrın 24-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının maliyyə dəstəyi ilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan 1250 aztəminatlı, o cümlədən şəhid və qazi ailələri üçün ərzaqla dolu avtomobil karvanı yola salınıb.






Yolasalma mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin




səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, eləcə də Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev iştirak ediblər.

Məlumat verilib ki, Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan aztəminatlı, o cümlədən şəhid və qazi ailələri üçün gətirilmiş bayram sovqatları müxtəlif zəruri ərzaq məhsullarından ibarətdir.

Sonda sovqatlardan ibarət 5 avtomobil təyinatı üzrə ünvanlara yola salınıb.

Qeyd edək ki, 2023-cü ilin son 6 ayı ərzində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının maliyyə dəstəyi ilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən, ümumilikdə, 8 minə yaxın aztəminatlı, o cümlədən şəhid və qazi ailələrinə sovqat paylanılıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqəti və qayğısı ilə ölkəmizdə davamlı sosial layihələr həyata keçirilir. Əlamətdar günlərdə və bayramlarda mütəmadi olaraq aztəminatlı, şəhid və qazi ailələrinə sovqatların çatdırılması da belə sosial layihələrin tərkib hissəsidir.

**"Şərq qapısı"**

# Ağbulaq İstirahət Mərkəzi növbəti qış turizmi mövsümünə hazırdır





Dekabrın 24-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev Ağbulaq İstirahət Mərkəzində olub, qış turizminə hazırlığın vəziyyəti ilə maraqlanıblar.

Məlumat verilib ki, buradakı Xizək Mərkəzində ümumi uzunluğu 1600, eni isə 30 metr olan dağxizək enişi, kanat yolu, kafelər, süni qaryaratma sistemləri, xizəksürmə məktəbi mövcuddur. Sürüşmə zolaqlarında və kanallarda, eləcə də uşaqların əyləncəsi üçün nəzərdə tutulan sahədə lazımi təmizlik işləri aparılıb. Hazırda 26 sabit, 2 hərəkət edən süni qar püskürtmə aparatı





vasitəsilə ərazidə süni qar örtüyü yaradılır.

Burada 120 dəst hər yaş qrupuna uyğun geyim, bir o qədər də xizək sürənlər üçün xüsusi geyim dəstləri mövcuddur. Bu il uşaqlar üçün 60 yeni kirşə alınıb, 4 qar motorunun hər biri texniki baxış keçirilərək saz vəziyyətə gətirilib. Həmçinin mərkəzin əsas infrastrukturundan biri olan kanat sisteminə texniki baxış keçirilib və lazımi təhlükəsizlik tədbirləri görülüb. Uzunluğu 952 metr olan kanat yolunda hər biri 4 yerlik olmaqla, 58 oturacaq quraşdırılıb. Kanat xəttində quraşdırılması üçün yeni qapalı kabinlər də sifariş verilib. Kanat liftinin başlanğıcında və sonunda kafelər fəaliyyət göstərir.

Səlahiyyətli nümayəndə Xizək Mərkəzində yeni yaradılan infrastruktura da baxıb. Məlumat verilib ki, ərazidə 3-ü VIP olmaqla, 8 yeni kupe istifadəyə verilib. VIP otaqlardan 2-si 6, 1-i isə 12 nəfərlikdir. Həmçinin qonaqların rahatlığının təmin olunması məqsədilə yeni mağaza da fəaliyyətə başlayıb. Burada məhsullar bazar qiymətlərinə uyğun təklif olunur.

**"Şərq qapısı"**

# Naxçıvanda "Snowfest – qış festivalı"na hazırlıq başa çatıb

Dekabrın 25-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri Naxçıvan şəhərinin Heydər Əliyev prospektinə gəlib, burada təşkil olunacaq "Snowfest – qış festivalı"na hazırlığın vəziyyəti ilə maraqlanıb.

Məlumat verilib ki, bu gündən start götürəcək festival 2024-cü il yanvarın 7-dək davam edəcək. Yeni il şəhərciyi ötən illərdən fərqli olaraq yeni dizaynda və rəngarəng dekorlarla bəzədilib, burada şəhərin ən böyük yolkası quraşdırılıb. Bu gün









ərazidə quraşdırılan böyük pavilyonda ölkənin əsas ulduzunun, növbəti günlərdə isə digər ifaçıların təqdimatında maraqlı konsert proqramı təqdim olunacaq.

Prospektin ümumi ab-havasına uyğun quraşdırılan 30-a yaxın köşkdə muxtar respublika sakinlərinə və qonaqlara müxtəlif iaşə xidmətləri göstəriləcək.

Səlahiyyətli nümayəndə təqdim olunan məhsullarla tanış olub. Məlumat verilib ki, muxtar respublikada fəaliyyət göstərən istehsal və iaşə

*Ardı 3-cü səhifədə*






obyektlərində, eləcə də bölgələrdə fəaliyyət göstərən ailə təsərrüfatları tərəfindən hazırlanan müxtəlif mətbəx nümunələri, şirniyyat və qənnadı məmulatları, fastfudlar, meyvə şirələri, dəniz məhsulları, çərəzlər, eləcə də müxtəlif əl işləri festival boyunca təqdim olunacaq.

“Heydər Əliyev – 100”, “Naxçıvan Muxtar Respublikası – 100” və Zəfər tariximizi əks etdirən foto və nəşrlərdən ibarət stendlər Naxçıvan Dövlət Universitetinin kollektivi və Gənclər Fondunun könüllüləri tərəfindən bütün festival boyu nümayiş etdiriləcək.

Ali təhsil ocağının Memarlıq fakültəsi tələbələrinin təqdim etdiyi layihələrə də baxış olub. Sonra 850 universitet tələbəsinin iştirakı ilə 625 mozaika fotodan ibarət Ulu Öndərin portretini canlandıran flaşmob təqdim edilib.

Tədbirdə iştirak edən gənclər dilək yolkasını səlahiyyətli nümayəndəyə və qonaqlara təqdim ediblər. Yolkanın üzərində Ordubad şəhər internat tam orta məktəbində təhsil alan şagirdlərin yeni il arzuları əks olunub. Qeyd edək ki, şagirdlər tərəfindən ünvanlanan istəklərin hər biri qarşılanacaq.

Fuad Nəcəfli gənclərlə xatirə fotoları çəkdirib, jurnalistlərin suallarını cavablandırıb.

**“Şərq qapısı”**

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli jurnalistlərə müsahibə verib




“Şərq qapısı” qəzeti müsahibəni təqdim edir: – Bu gün muxtar respublikada ən aktual sahələrdən biri tikintidir. Bu günə qədər mövcud olan tikintilərin keyfiyyəti qaneedici olmadığına görə müvəqqəti olaraq bu sahədə işlər dayandırılıb. 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanın sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət Proqramını təsdiq edib. Bu proqram çərçivəsində 2023-cü ilin son 4 ayı ərzində icra olunması nəzərdə tutulan layihələrin hamısı tenderlər vasitəsilə həyata keçirilməyə başlayıb. Layihələrin tətbiqi, əsaslandırılması, layihələndirilməsi, işçi layihələrin hazırlanması üzərində iş gedir. Artıq 2024-cü ilin mart-aprel aylarından başlayaraq Naxçıvan Muxtar Respublikasında tikinti işlərinə geniş vüsət veriləcək və bir sıra böyük infrastruktur layihələri icra olunacaq.

Bu ili, ümumilikdə, müsbət dəyərləndirirəm. Həyata keçirilən islahatlar nəticəsində Naxçıvanda həm iş adamları, həm ümumi əhali üçün rahat, sərbəst bir mühit formalaşdırılıb. İnsanlar hər bir sahədə sərbəst düşünə, sərbəst hərəkət edə bilirlər. Mən keçən illərin təhlilini aparmaq fikrində deyiləm. Amma, ümumilikdə, bütün qərarlar artıq kollegial əsaslarla qəbul olunur. Naxçıvan şəhəri və ümumilikdə, Naxçıvan Muxtar Respublikası 2023-cü ildə 40-dan çox tədbirə ev sahibliyi etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü ilin “Heydər Əliyev İli” elan olunmasına uyğun olaraq həm də bu istiqamətdə tədbirlər keçirildi.

Bu il Naxçıvan həm də çox maraqlı, olduqca əhəmiyyətli bir görüşə ev sahibliyi etdi. Naxçıvanda Azərbaycan Respublikasının Prezidenti ilə Türkiyə Cümhuriyyəti Prezidentinin görüşü keçirildi, eləcə də ayrı-ayrı nazirlərin iştirakı ilə hökumətlərarası görüşlər oldu. Bu da hər iki dövlətin gələcək perspektivlərini müəyyənləşdirmək naminə növbəti bir mərhələnin başlanğıcı kimi çox əhəmiyyətli idi. Ümumilikdə, 2023-cü il təkcə Naxçıvan Muxtar Respublikası üçün deyil, Azərbaycan Respublikası üçün kifayət qədər yaddaqalan, şanlı bir tarix oldu. Çünki biz bu il Azərbaycan Respublikasının bütün ərazilərində öz suverenliyimizi bərpa etmişik. Haqlı olaraq qürurla, fəxrlə bunu həmişə yadda saxlamalıyıq.

Cənab Prezident Naxçıvan Muxtar Respublikasında səfərdə olarkən belə bir fikir səsləndirmişdi: ***“Naxçıvanın qazı, nefti olmasa da, günəşi var”.*** Buna uyğun olaraq da Naxçıvanın “yaşıl enerji” sahəsində aparıcı qüvvə olması hədəflənir. Naxçıvanda günəşli günlərin sayı olduqca yüksəkdir, ərazilərimizdə külək resursları var. Ümumilikdə, “yaşıl enerji”yə keçidlə bağlı layihələr artıq işlənilib. Aparıcı şirkətlərlə ilkin memorandumlar bağlanılıb. Hazırda layihələrin icrası ilə bağlı işçi layihələr hazırlanır. 2024-cü ilin ikinci yarısında bu layihələrin icrasının şahidi olacağıq.

Yeni illə bağlı hər birinizə uğurlar, səadət arzulayıram. Fəaliyyətinizdə, ailənizdə müvəffəqiyyətlər arzulayıram. Bayramınız mübarək olsun.

**✍ Ceyhun MƏMMƏDOV**

## Səlahiyyətli nümayəndə “Naxçıvan Şəhid Ailələri” və “Naxçıvan Qaziləri” İctimai birliklərinin nümayəndələrini qəbul edib

Dekabrın 25-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvanda yeni yaradılan “Naxçıvan Şəhid Ailələri” və “Naxçıvan Qaziləri” İctimai birliklərinin nümayəndələrini qəbul edib.

Görüşdə Fuad Nəcəfli vurğulayıb ki, Müzəffər Ali Baş Komandanımızın, qəhrəman şəhid və qazilərimizin sayəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub. Dövlət Bayrağımız bütün bölgələrimizdə dalğalanır. Xalqımız gələcəyə böyük ümidlərlə baxır, fəxarətlə qurub yaradır. Naxçıvan da bu proseslərdən kənarda qalmır və 2024-cü il muxtar respublikada quruculuq ili kimi yadda qalacaq.



Qəhrəman şəhidlərimizin xatirəsi əbədiləşdirilir. Bu il Babəkdə Şəhidlər Memorial Abidə Kompleksi istifadəyə verilib. Hazırda Şərurda və digər bölgələrdə də belə komplekslər tikilib istifadəyə veriləcək.

Ötən dövrdə şəhid ailələri və qazilərlə mütəmadi görüşlərin keçirildiyini və bu tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirən səlahiyyətli nümayəndə ictimai birliklərin yaradılmasını şəhid ailələri və qazilərin problemlərinin həlli, eləcə də müvafiq tədbirlərin təşkili məsələlərində səmərəliliyin artırılmasına töhfə kimi dəyərləndirib. Bildirib ki, hər iki birliyin fəaliyyəti üçün lazımi şərait yaradılıb və bu istiqamətdə işlər davam etdiriləcək.

Səlahiyyətli nümayəndə “Naxçıvan Şəhid Ailələri” və “Naxçıvan Qaziləri” İctimai birlikləri ilə sıx əməkdaşlığın vacibliyini önə çəkərək vurğulayıb ki, şəhid ailələri, qazilərlə bağlı təşkil olunacaq tədbirlər, keçiriləcək görüşlər mərkəzləşdirilmiş qaydada, koordinasiyalı və planlı şəkildə yerinə yetirilməlidir.

İctimai birliklərin nümayəndələri səmimi görüşə görə minnətdarlıq edib, Ali Baş Komandanımızın rəhbərliyi ilə dövlətimizin qayğısını hər zaman üzərlərində hiss etdiklərini bildiriblər. “Naxçıvan Qaziləri” İctimai Birliyinin yeni ofisinin istifadəyə verilməsini və fəaliyyət üçün hər cür şəraitin yaradılmasını bu tədbirlərin davamı kimi yüksək qiymətləndiriblər. Birlik üzvləri bundan sonra da müvafiq tədbirlərin təşkilində, eləcə də mərd oğullarımızın qəhrəmanlıqlarının gənc nəslə aşılanmasında, onların vətənpərvər ruhda yetişməsində daha yaxından iştirak edəcəklərini ifadə ediblər.

**“Şərq qapısı”**

## Şərur rayonunun Xələc kəndində məscid istifadəyə verilib

*Dekabrın 24-də Şərur rayonunun Xələc kəndində yeni məscid istifadəyə verilib.*

Açılış tədbirində iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli qeyd edib ki, məscidin həm “Heydər Əliyev İli” çərçivəsində, həm də belə bir əlamətdar gündə istifadəyə verilməsi böyük rəmzi məna daşıyır. Vurğulanıb ki, Ulu Öndər Heydər









Əliyev hər zaman islami dəyərlərə hörmət və ehtiramla yanaşıb. Məscidləri, dini ziyarətgahlarımızı qoruyub, dini-mənəvi dəyərlərimizi yaşadaraq inkişafına xüsusi diqqət göstərib. Samir Seyidəhmədli diqqətə çatdırıb ki, Xələc kənd məscidində yaradılan şərait milli-mənəvi dəyərlərimizin qorunmasının cənab İlham Əliyevin ciddi diqqət mərkəzində olmasının əyani sübutudur.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev qeyd edib ki, dövlət başçısının təşəbbüsü və tapşırıqlarına əsasən ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, ziyarətgah və tarixi abidələr inşa edilib və ya bərpa olunub. Digər çıxışçılar da 44 günlük Vətən müharibəsindəki zəfərimizə və bu ilin sentyabrında aparılan lokal antiterror tədbirlərinə diqqət çəkərək bildiriblər ki, artıq bu gün Azərbaycanın bütün bölgələrində azan səsi duyulur.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi tərəfindən Xələc kənd məscidinə müqəddəs “Qurani-Kərim” hədiyyə edilib. Sonra məscidə baxış olub. “Qurani-Kərim”dən ayələr oxunub.

Qeyd edək ki, Xələc kəndindəki sözügedən ərazidə əvvəllər də məscid fəaliyyət göstərib. Lakin tam yararsız vəziyyətə düşdüyündən, yenisinin inşa olunmasına ehtiyac yaranıb. 1250 kvadratmetr sahədə yerləşən məscidin tikintisinə Xələc kənd camiyyətinin təşəbbüsü və sakinlərin dəstəyi ilə 2022-ci ilin avqust ayında başlanılıb. Məscid 1 günbəz və 2 minarədən ibarət olmaqla, eyni zamanda 135 nəfərin ibadət etməyi üçün uyğunlaşdırılıb. Ərazidə yaşıllaşdırma və abadlıq işləri aparılıb.

**“Şərq qapısı”**

2023-cü il “Heydər Əliyev İli”dir

# Ümummilli Lider Heydər Əliyev məhkəmə-hüquq islahatlarının banisidir


*“Böyük quruculuğun memarı”, rəssamı Cavid İsmayılov*

Dövlətçilik tariximizin böyük bir mərhələsi birbaşa Ulu Öndərimizin adı ilə bağlıdır. Onun ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə Azərbaycan bütün sahələrdə böyük məsafə qət etmiş, yerləşdiyi regionda söz sahibinə çevrilmişdir. 1993-cü ildə Ümummilli Liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan əsl müstəqilliyini qazanmış, siyasi sabitlik təmin edilmiş, dövlət idarəçiliyində demokratik prinsiplərin tətbiqi və hüquqi dövlətin qurulması istiqamətində böyük uğurlara nail olunmuşdur.

Hüquq sahəsində fundamental islahatların həyata keçirilməsini, demokratik dəyərlərə əsaslanan milli qanunvericilik bazasının formalaşdırılmasını təmin etmək üçün Konstitusiya layihəsinin hazırlanması zərurətə çevrilmişdi. Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı ilə Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi təsdiq olunmuşdu. Konstitusiya komissiyasının tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, tanınmış ictimai-siyasi və elm xadimləri, görkəmli hüquqşünaslar, tarixçilər, dilçilər daxil edilmişdi. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə ilk milli Konstitusiyamız qəbul edildi. Referendum ərəfəsində Ulu Öndər Heydər Əliyev demişdi: ***“Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm”.***

Beləliklə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Azərbaycanın ilk Konstitusiyası dövlətçilik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, hüquqi islahatların əsası və normativ bazası rolunu oynamışdı. Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri əsasında islahatlar aparılması üçün Ümummilli Liderimizin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə Hüquq İslahatları Komissiyası yaradıldı. Komissiyanın hərtərəfli və gərgin fəaliyyəti nəticəsində “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Prokurorluq haqqında”, “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “Notariat haqqında”, “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında”, “Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında”, “Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında” qanunların, hüquq sisteminin mahiyyətini müəyyən edən Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, Əmək, Ailə, İnzibati Xətalar, Gömrük, Vergi və digər məcəllə və normativ-hüquqi aktların layihələri hazırlanmış və nüfuzlu beynəlxalq qurumların ekspertizasından sonra qəbul edilmişdir.

Dövlətimizin əsas qanunu qəbul edildikdən sonra 1998-ci il iyulun 14-də Milli Məclisin Qərarı və Ulu Öndər Heydər Əliyevin həmin orqanın müstəqilliyini və hakimlərin hüquqi statusunu təmin etmək məqsədilə imzaladığı Fərmanla Konstitusiya nəzarəti orqanı – Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi fəaliyyətə başlamış, bu təsisatın dövlət hakimiyyəti sistemində yeri və rolu müəyyənləşdirilmişdir.

Konstitusiyamızın müəyyənləşdirdiyi mühüm yeniliklərdən biri də hüquqi dövlətin göstəricisi kimi müstəqil məhkəmə hakimiyyətinin yaradılması olmuşdur. Ümummilli Liderin təşəbbüsü ilə hələ 1997-ci ildə qabaqcıl dövlətlərin təcrübəsinə əsaslanan “Məhkəmələr və hakimlər haqqında” yeni qanun qəbul edilmiş, 1998-ci ildə isə məhkəmə islahatlarına dair proqram xarakterli “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə Fərman imzalanmışdır. Görkəmli dövlət xadiminin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları nəticəsində 2000-ci ildən etibarən yeni, insan hüquqlarının daha etibarlı müdafiəsinə təminat verən üçpilləli məhkəmə sistemi fəaliyyətə başlamışdır.

Azərbaycan 2001-ci il yanvarın 25-də Avropa Şurasına üzv olduqdan sonra Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmuş və Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasını qəbul etmişdir. Bununla da milli qanunvericiliyin təkmilləşməsi, Avropa standartlarına cavab verən yeni qanunların qəbul edilməsi prosesi daha da sürətləndirilmişdir. Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən həyata keçirilən islahatlar prokurorluq orqanlarını da əhatə etmiş, Konstitusiya ilə prokurorluq orqanları məhkəmə hakimiyyəti sisteminə daxil edilmişdir.

“Polis haqqında” Qanun qəbul edilmiş, həmin qanunla polisin səlahiyyətləri, hüquqları və vəzifələri, habelə polisin fəaliyyəti üzərində nəzarət mexanizmləri müəyyən edilmiş, polis əməkdaşlarının qanunsuz hərəkətlərindən və qərarlarından məhkəməyə müraciət etmək hüququ təsbit olunmuşdur.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ədliyyə orqanlarında da əsaslı islahatlar aparılmış, ədliyyə sisteminin hərtərəfli inkişafı üçün əhəmiyyətli qərarlar qəbul olunmuşdur. Məhkəmə qərarlarının icrası sistemini təkmilləşdirmək, cəza-islah işini humanistləşdirmək, insan hüquqlarının, azadlıqlarının gözlənilməsini təmin etmək məqsədilə penitensiar müəssisələr Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir.

Ulu Öndər Heydər Əliyev tərəfindən humanist cəza-icra siyasəti həyata keçirilmiş, ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan, bütövlükdə, Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının yaradılması bu istiqamətdə atılmış mühüm addım olmuşdur. 1995-2003-cü illərdə Ümummilli Lider Heydər Əliyev tərəfindən 3104 məhkuma şamil edilən 32 əfv Fərmanı imzalanmışdır. Habelə Onun qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2003-cü illərdə amnistiya haqqında 8 qanun qəbul etmiş və 20 mindən çox məhkum azadlığa buraxılmışdır.

*Öz ömrünü xalqına xidmətə həsr etmiş Ulu Öndərin böyüklüyü və həyata keçirdiyi genişmiqyaslı islahatların xarakteri zaman keçdikcə daha da dərindən dərk edilir. Azərbaycan xalqı Heydər Əliyev irsinə həmişə böyük fəxr və qürur hissi ilə yanaşır. Ümummilli Liderimizin irsinin öyrənilməsi və təbliği qarşımızda duran əsas vəzifələrdən biridir. Ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi:* ***“Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz Onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax bu yolun təməlində dayanıb”.***

**İsmayıl QƏRİBLİ**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Hüquq siyasəti komitəsinin sədri***



# 20 ilin zirvəsi – Qələbə xəbəri

## Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim

***“Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək”*** demişdi Ulu Öndər çıxışların birində. Oğluna – gələcəyin liderinə dünyanın heç bir var-dövləti ilə müqayisə edilə bilməyəcək bir xəzinə və ağır bir yük miras qoymuşdu dünyadan köçəndə. Bu miras əvəzolunmaz bir xəzinə idi. Onu qoruyub yaşatmaq isə böyük bir məsuliyyət, güc, əzm, iradə tələb edirdi. Ölkə başçısı həm dünyaya öz siyasi gücü ilə meydan oxuyan bir liderin siyasət meydanındakı ad-sanını, həm də yox olmaq təhlükəsindən xilas edib ayağa qaldırdığı bir dövləti – Azərbaycanı qorumalı, yaşatmalı və Qarabağ kimi ağır bir problemi həll etməli idi. “Yolu doğru olanın yükü ağır olar”, – deyiblər. Bu yükün yolu doğru olduğu kimi, uzun, çətin, keşməkeşli də oldu. Xalq öz dahi oğlunun davamçısına 2003-cü ildə ilk dəfə etimad göstərəndə Onun cəmi 42 yaşı var idi. Aradan keçən illər ərzində xalq bir daha şahid oldu seçiminin düzgünlüyünə. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində də cənab İlham Əliyev yenidən xalqın etimadını qazandı.

*Arzuları çin edən Lider*

Azərbaycan vətəndaşı olaraq ilk dəfə Naxçıvan Muxtar Respublikasında dahi rəhbər Heydər Əliyevə, 2003-cü ildə isə İlham Əliyevə səsvermə hüququmdan istifadə edib səs vermişdim. Sonra isə 2008-ci ildə Ağcabədi şəhərində, 2013-cü ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində. 2018-ci ildə isə Prezident seçkilərində həm də jurnalist kimi iştirak edib, xalqın sevincini yaddaşa köçürmək şərəfinə nail oldum. 2008-ci ildə və 2013-cü ildə keçirilən seçkilərdə hərbi yoldaşı olduğum üçün müvəqqəti yaşayış yerlərində səsvermə hüququmdan istifadə etmişdim. Bu seçkilərdə mənimlə bərabər Xocalı, Şuşa, Ağdam, Laçın sakinləri də vardı. Onlar böyük ümidlə öz seçimlərini edir, inanırdılar ki, etimad göstərdikləri lider onları öz yurdlarına qaytaracaq. 2018-ci ildəki prezident seçkilərində Goranboy rayonunda yaşayan, Kəlbəcərdən məcburi köçkün olan yaxın qonşum İsmayıl babanın “Yenə seçimim Heydər Əliyevin layiqli davamçısı oldu, inanıram ki, ömrümün son günlərini Kəlbəcərdə keçirəcəyəm. Heç olmasa, Ömər aşırımından bir dəfə keçib, o gözəl bulaqların suyundan ölmədən öncə bir qurtum içəcəyəm” sözləri, Kəlbəcər azad olunanda isə sevinclə mənə zəng vurub “o Müzəffər Sərkərdə oldu, mən isə öz arzuma çatdım” deməsi bir qocanın yox, böyük bir xalqın səsi idi.

Onların arzuları yurdlarına bircə dəfə ayaq basıb, bir udum suyundan içib, havasını udmaq idi. İllər öz evində yaşayanlar üçün çox tez keçirdi, amma Ağdamdan məcburi köçüb rayonun işğal olunmamış Çəmənli kəndində çadırda yaşayan, hər gün Ağdamda dünyaya gəldiyi evinin tüstüsünün ərşə qalxdığını görən ağdamlı, Xocalıdan çıxanda hər ailə üzvünü bir təpədə, meşələrin qarlı-boranlı künclərində itirən xocalılı, əsir düşmüş yaxınının Şuşa həbsxanasındakı iniltisini hər gün iliklərində hiss edən laçınlı üçün günün biri bir əsrə bərabər idi. Onlar hər gün soyuq çadırlarda ümidlə yatıb, qaynar vaqonlarda ümidlə oyanırdılar. İllər beləcə keçdi. Bir çox yerlərdə yeni yaşayış kompleksləri salındı, məcburi köçkünlər oralara köçürüldü. Çadır şəhərciklərini, qışda soyuq, yayda isti olan vaqonlardakı dözülməz şəraiti Füzulidə Haramı düzündə salınan müasirtipli qəsəbələr əvəz etdi. Amma onların şəraiti yaxşılaşdırılsa da, fikirlər, xəyallar doğma yurdlarında qaldı. Cıdır düzündə ermənilər yallı gedəndə, Topxana meşəsi baltaya tuş gələndə, Cəbrayıl, Füzuli xarabaya dönəndə, Həkəri lal axanda, Ağdamın ağ günləri qaraya bürünəndə yuxuları qarışdı onların. Çox çətinlik çəkdilər, amma heç vaxt ümidlərini itirmədilər. Çadır şəhərciyində sac qurub lavaş bişirdilər, öz köhnə çadırlarının yanına təzə çadır qurub toy etdilər. İgid oğullar böyüdüb Vətənə qurban etməyə hazırladılar onları. Bu xalq öz Prezidentinə inandı və sonunda dünyaya səs salacaq bir Zəfərə imza atdı. Bir vaxtlar alnımıza yazılan məğlub xalq sözü silindi. 30 ildə qanlı-qadalı günlərdə zorla çıxarıldığımız torpaqlara zəfərlə qayıtdıq. İllərlə “bir gün qayıdıb evimizin qapısını açarıq”, – deyə sandıqda saxlanan açarlar bağlı qıfılları açdı. Hər günü min əsrə bərabər 20 ilin zirvəsinə Qələbə xəbəri taxt qurdu.

*Müzəffər Sərkərdə*

Bütün dünya Azərbaycanın Ali Baş Komandanına həsəd apardı. Hətta düşmən dövlətin vətəndaşı belə İlham Əliyev kimi bir Prezident arzusunda olduğunu etiraf etdi. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa, Ali Baş Komandan ata vəsiyyətini yerinə yetirən oğula çevrildi. Füzuli Beynəlxalq Hava Limanına enən təyyarədə səslənən “Qarabağa xoş gəlmisiniz” sözlərini eşidəndə, qələbədən keçən üç ildə Şuşada, Füzulidə, Zəngilanda, Ağdamda aparılan quruculuq işlərini, keçirilən möhtəşəm tədbirləri, öz doğma ocaqlarına birdəfəlik yerləşən ailələrin yanan çırağını, Şuşada qurulan büsatımızı, Zəngilanda dünyaya gələn körpələrimizi, Füzulidə məktəbə tələsən uşaqlarımızın sevincini, Xankəndidə addımlayan Azərbaycan əsgərinin ayaq səsindən qorxuya düşən düşməni görəndə, Zəngilanın Ağalı kəndində öz doğma evinə köçən bir sakinin cənab Prezidentə dediyi “Seçki Komissiyasına deyin kağız-kuğuzu korlamasın, bizim Prezidentimiz əbədi seçilib” sözlərini eşidəndə bir daha əmin olduq seçimimizin düzgünlüyünə.

*Müstəqil Azərbaycan tarixində ilk dəfə olaraq gələn ilin fevralın 7-də suverenliyimiz tam bərpa olunmuş bütün ərazilərimizdə keçiriləcək seçkilərdə bütöv Azərbaycan olaraq iştirak edəcək bu xalq. Zəngilandan, Füzulidən, Laçından olan seçicilər artıq məcburi köçkün qəsəbələrində yox, öz yurdlarında bu hüquqlarından istifadə edəcəklər. Müstəqil Azərbaycanın Şuşaya səfər edən ilk Prezidenti olmaq şərəfini qazanan cənab İlham Əliyev, əminik ki, bütöv və suveren Azərbaycanın ilk Prezidenti ünvanını da qazanacaq.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## “Ulu Öndər Heydər Əliyevin izi ilə” turunun təqdimatı keçirilib



*Azərbaycan Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində təşkil edilən silsilə tədbirlərin davamı olaraq media və turizm sənayesi nümayəndələrinin iştirakı ilə “Ulu Öndər Heydər Əliyevin izi ilə” turunun təqdimatı keçirilib.*

Tədbirdə çıxış edən Dövlət Turizm Agentliyinin sədrinin müşaviri Kənan Quluzadə “Heydər Əliyevin izi ilə” turunun turizm məhsullarının şaxələndirilməsində töhfəsini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Pənah Mehdiyev, öz növbəsində, Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti və muxtar respublikanın inkişafı istiqamətində gördüyü işlərdən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na əsasən turizmin prioritet sahələrdən biri olduğunu qeyd edib. Bu turun turizmin inkişafına öz töhfəsini verəcəyini və Ümummilli Lider Heydər Əliyev irsini dərindən öyrənmək istəyənlər üçün mühüm mənbə olacağını bildirib.





Təqdimatda turun Ulu Öndərin Naxçıvanda qorunmasına xüsusi diqqət ayırdığı tarix və mədəniyyət abidələrini, həyat və fəaliyyəti ilə əlaqəli, eləcə də Onun xatirələrinin yaşadıldığı məkanları əhatə etməsi haqqında məlumat verilib.

Tədbir çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə media nümayəndələrinin görüşü təşkil edilib.

Səfər çərçivəsində media və sənaye nümayəndələri üçün Ümummilli Liderin təşəbbüsü ilə 1982-ci ildə naşi Sibirdən gətirilərək doğma Vətənində dəfn edilən və qəbri üzərində xatirə abidəsinin ucaldıldığı böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məqbərəsinə, hazırda Bəhruz Kəngərli Muzeyi kimi fəaliyyət göstərən Heydər Əliyevin 1938-1939-cu illərdə təhsil aldığı Pedaqoji Texnikumun binasına, hazırda Naxçıvan Turizm İnformasiya Mərkəzi kimi fəaliyyət göstərən, tarixən Zaviyə-mədrəsə binası kimi tanınan, Ümummilli Liderin 1930-cu illərdə şahmat, musiqi və dram dərnəklərinin üzvü olduğu Naxçıvan Şəhər Pionerlər Evinin binasına, Ulu Öndər Heydər Əliyevin tapşırığı və himayəsi



ilə 1998-ci ildə abadlıq və yenidənqurma işlərinin aparıldığı “Əshabi-Kəhf” Dini-Mədəni Abidə Kompleksinə, görkəmli dövlət xadiminin təşəbbüsü ilə 1977-ci ildə “qoruq-şəhər” elan edilmiş Ordubad şəhərinə, o cümlədən “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə, Naxçıvan Dövlət Milli Dram Teatrına tanışlıq turu təşkil edilib.

İkigünlük proqram qeyd olunan məkanlardan əlavə Heydər Əliyev Muzeyini, “Əlincəqala” tarixi abidəsini, “Qeysəriyyə” binasını və Ordubad Cümə məscidi də daxil olmaqla Naxçıvan, Culfa və Ordubad şəhərlərində olan əsas tarixi məkanları əhatə edir.

**Ceyhun MƏMMƏDOV**

## Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***



### Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət



***Kərim İsmayılov***
***İtaliya, Roma.***
***İtaliya-Azərbaycan əlaqələri üzrə təşkilatın rəhbəri***

Mən Naxçıvan şəhərində doğulub, böyümüşəm. Ali təhsilimi Naxçıvan Dövlət Universitetində almışam. 2016-cı ildən İtaliya Respublikasının Roma şəhərində yaşayıram. Sapienza Universitetinin Dünya hüququ və iqtisadiyyat ixtisasını magistr səviyyəsi üzrə bitirmişəm.

Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşasam da, Vətən eşqi, Vətən həsrəti daim məni düşündürüb. Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü milli birlik, Vətənə bağlılıq, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət hisslərini özündə əks etdirir.

Artıq müasir mərhələdə dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Bizlər də, öz növbəmizdə, İtaliyada yaşayan azərbaycanlılar olaraq bu ölkənin ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynamağa çalışırıq. Hazırda fəaliyyətimizi Avropa institutlarında, insan haqları institutlarında, Avropa parlamenti səviyyəsində davam etdiririk. İtaliya Azərbaycanlıları Birliyi olaraq daha çox diaspor fəaliyyətindən lobbiçilik fəaliyyətinə keçid etməyə çalışırıq. Buna nümunə kimi birliyin çoxsaylı heyəti ilə Belçikanın paytaxtı Brüsseldə Xocalı aksiyası ilə bağlı iştirakımızı qeyd edə bilərəm.

Hər il Polşanın paytaxtı Varşavada ATƏT-in Zirvə toplantısı keçirilir.



Həmçinin biz də ATƏT-in Zirvə toplantısında aktiv iştirak edirik. İtaliya Azərbaycanlıları Birliyi kimi çalışırıq ki, beynəlxalq tədbirlərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatlarından, strategiyasından istiqamətlənərək çıxışlar edək. Azərbaycan dövlətinin maraqlarına uyğun şəkildə, dövlət maraqlarını müdafiə edəcək formada bu məsələləri müstəqil şəkildə həyata keçirməyi diqqətdə saxlayırıq.

44 günlük Vətən müharibəsi zamanı olan fəaliyyətimizi isə xüsusilə qeyd etmək istərdim. O vaxt ermənilərin başlatdığı təxribat artıq yalnız cəbhədə deyil, eyni zamanda həm qaralama xarakterli, anti-Azərbaycan təbliğatlı informasiya, həm də aqressiv bir şovinizm səviyyəsinə qədər çıxa bilmişdi. Ermənistan növbəti dəfə uduzduğuna görə beynəlxalq aləmdə özünün uğursuz diplomatiyası ilə tanındığı üçün artıq xarici ölkələrdə təxribatlara başlamışdı, Avropa ölkələrində Azərbaycanın diplomatik nümayəndəlikləri qarşısında etiraz aksiyaları adı altında təxribat aksiyaları törətmək yolunu tutmuşdu. Dövlət Bayrağımızı yandırmaq kimi heç bir etik qaydalara sığmayan hərəkətlərə yol verən erməni diasporunun bu əməlləri həmin ölkələrdə, eləcə də İtaliyada yaşayan Azərbaycan xalqının nümayəndələri üçün səfərbərlik anonsu oldu.

İşğalçı Ermənistan yaratmaq istədiyi informasiya çirkinliyi ilə dünya ictimaiyyətini aldatmağa, həqiqətə uyğun olmayan məlumatları tirajlamağa çalışırdı, lakin gənclərimizin müxtəlif dillərdə gecə-gündüz apardığı informasiya savaşı ermənilərin bu arzusunu ürəyində qoydu. Azərbaycan dövlətinin və Azərbaycan gəncliyinin sosial mediada aktiv fəaliyyəti, “Facebook” və “X” platformaları üzərindən başlatdığı kampaniyalar 44 günlük Vətən müharibəsi zamanı ermənilərin bu cəhdinin də baş tutmasına imkan vermədi. Onların dezinformasiya cəbhələri susduruldu və məğlubiyyətə məcbur edildi.

Vətən müharibəsi zamanı İtaliyada yaşayan azərbaycanlılar Brüsseldə keçirilən Ümumavropa Qarabağ mitinqində iştirak etdilər. Eyni zamanda həmin dövrdə – müharibənin gedişində Romanın mərkəzi meydanlarından olan “Monte Citorio”da “Qarabağ Azərbaycandır!” şüarları hər yerə yayılmışdı.



İtaliyada keçirilən müxtəlif mədəni-kütləvi tədbirlərdə diasporun nümayəndələri bir araya gələrək fəal şəkildə iştirak edir, həmrəyliyimizi daha da gücləndiririk. Ötən il Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə İtaliya Deputatlar Palatasında keçirilən “Azərbaycan-İtaliya: çoxşaxəli strateji tərəfdaşlığa doğru yol” konfransı, Romada Sala Umberto Teatrında keçirilən “Xarıbülbül” konsert proqramı, Romanın Sapienza Universitetində İmadəddin Nəsimiyə həsr olunmuş kitabın təqdimatı və Nəsiminin şeirlərinin qiraət olunduğu tədbir, Berlində dünyanın müxtəlif ölkələrində yaşayan və diaspor işi ilə məşğul həmvətənlərimizlə olan görüş və adlarını sadalamadığım onlarla bu kimi tədbirlərdə İtaliya azərbaycanlıları olaraq hər zaman həmrəylik nümayiş etdirir, Vətənimizin tanıdılması və düzgün təbliğ olunması işində əlimizdən gələni əsirgəmirik.

Ümummilli Liderin təməlini qoyduğu, bu gün cənab Prezident tərəfindən inamla davam etdirilən Azərbaycançılıq ideologiyası həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlı gənclər üçün, həmvətənlərimiz üçün əsas ideyaya çevrilib. Məhz bu ideologiya ətrafında birləşən xaricdə yaşayan azərbaycanlıların bir araya gətirilməsi müharibə dönəmində Azərbaycan üçün ən önəmli olan amillərdən biri idi. Bu həm də ölkəmizin gələcək inkişafı, Azərbaycan həqiqətlərinin dünyaya olduğu kimi çatdırılması, maraqlarının müdafiə edilməsi üçün çox vacibdir. Həmrəyliyimiz daimi olsun.

## “Qəhrəman Muxtar Qasımlı” sənədli filminin təqdimatı olub



*Dekabrın 23-də “Naxçıvan Qaziləri” İctimai Birliyinin təşkilatçılığı ilə Vətən müharibəsinin qəhrəman şəhidi Muxtar Qasımlıya həsr olunan sənədli filmin təqdimat mərasimi keçirilib.*

Əvvəlcə Ulu Öndərin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsi ziyarət olunub. “Gənclik” Mərkəzində davam edən tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə “Naxçıvan Qaziləri” İctimai Birliyinin sədri Ceyhun Bayramov və Ali Məclisin deputatı Yeganə Məmmədovanın çıxışları dinlənilib. Bildirilib ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin liderliyi ilə rəşadətli Azərbaycan Ordusunun düşmən üzərində şanlı qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi hərb tariximizə qızıl hərflərlə yazılıb. Məhz cənab Prezidentin qətiyyəti, yüksək sərkərdəlik məharəti və qəhrəman Vətən övladlarının mübarizliyi, fədakarlığı sayəsində torpaqlarımızın 30 illik işğalına son qoyulub. Qeyd olunub ki, Qarabağda tarix yazan həmin qəhrəmanlarımızdan biri də Füzuli rayonu uğrunda gedən ağır döyüş əməliyyatlarında öz şücaəti ilə fərqlənmiş şəhid Muxtar Qasımlıdır. Müharibəyə Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan zabiti kimi qatılan Muxtarın döyüş yolu düşmənin müdafiə səddinin yarıldığı Füzulidə başlayıb və rayonun Alxanlı kəndində sona çatıb. 2 oktyabr 2020-ci il tarixdə Silahlı Qüvvələrimizin baş leytenantı Muxtar Qasımlı qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb.

Tədbirdə şəhidin atası Əli Qasımov və anası Almaz Qasımova ölümü ilə ölümsüzlük qazanan qəhrəmanımızın şərəfli ömür yolundan bəhs ediblər. Tədbirdə şəhid Şükür Hacıyevin anası Fatma xanım Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılan Vətən müharibəsi şəhidlərinin xatirəsinin yaddaşlardan heç vaxt silinməyəcəyini qeyd edib. Dövlətimiz tərəfindən şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Sonra Vətən müharibəsi şəhidinin xatirəsinə həsr edilən “Qəhrəman Muxtar Qasımlı” filmi nümayiş olunub. Sonda azyaşlılar tərəfindən şeirlər ifa edilib, qazi Əli Əlisoy tərəfindən qəhrəmanımıza həsr olunan şeir səsləndirilib.

**Sürəyya QƏDİMƏLİYEVA**



# Turizm

## Naxçıvanda turizm sahəsinin inkişafı yeni mərhələnin başlanğıcı olacaq

Azərbaycan Respublikası regionlarının, o cümlədən Naxçıvan Muxtar Respublikasının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Ölkə başçısının 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda bütün sahələrlə yanaşı, turizmin inkişafı da prioritetlərdən biri kimi qeyd olunub. Dövlət Proqramında muxtar respublikanın turizm potensialından istifadə etməklə regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi məqsədilə bu sahənin inkişafına yönəlmiş bir sıra tədbirlər öz əksini tapmışdır. Mövzu ilə bağlı Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru ***Saleh Quluyev***lə həmsöhbət olub hazırda bu istiqamətdə görülən işlər barədə məlumat aldıq.



Saleh müəllim bildirdi ki, Naxçıvan Muxtar Respublikası Turizm Departamenti tərəfindən Təfsilatlı Tədbirlər Planında nəzərdə tutulmuş turizmin inkişafı, müxtəlif turizm növlərinin inkişaf etdirilməsi, turizm atlasının hazırlanması, turizm və rekreasiya zonalarının yaradılması istiqamətində müvafiq işlərin həyata keçirilməsinə başlanılıb. Hazırda muxtar respublikada turizmin inkişafında öncül məsələlərdən biri infrastrukturun yaxşılaşdırılmasıdır.

Belə ki, Naxçıvan iqtisadi rayonu üzrə turizm inkişaf planının hazırlanması istiqamətində işlərə başlanılıb və müəyyən qədər məsafə qət edilibdir. Müsahibimiz qeyd etdi ki, turizm növlərinin inkişaf etdirilməsi istiqamətində də bir sıra işlərin ilkin mərhələsi başlanıb. Buna misal olaraq “Dağ cığırları əsasında piyada marşrutlarının (hiking route) xəritələrinin hazırlanması” məqsədilə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşları tərəfindən Şahbuz rayonunun Batabat yaylağı ərazisində qiymətləndirmə işləri aparılıb. Bununla yanaşı, ərazidə Batabat gölləri və Biçənək kəndi – Fərhad evi (Karvan yolu) – Zorbulaq gölü istiqamətlərində dağ cığırları əsasında piyada marşrutlarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi işi həyata keçirilib. Müəyyənləşdirilmiş dağ cığırları marşrutlarının izləri GPS-lə qeydə alınaraq dünyada təbiət yürüşü həvəskarları arasında məşhur olan “Wikiloc” platformasında yerləşdirilib.



Müsahibimiz qeyd edir ki, Dövlət Proqramının müvafiq bəndlərində müxtəlif turizm növlərinin inkişaf etdirilməsi də öz əksini tapıb. Bununla əlaqədar olaraq Batabat gölünün yaxınlığında tematik turistik mərkəzin layihələndirilməsi, Ordubad Tematik Parkının yaradılması, Batabat Astrofizika Rəsədxanası üçün tematik turistik mərkəzin tikilərək turizmin dəyər zəncirinə qatılması kimi məsələlər Dövlət Proqramında öz əksini tapmışdır. Turizm infrastrukturu turizm sektorunun uğurlu fəaliyyətinin və davamlı inkişafının ən mühüm komponentidir. Turizm sahəsində infrastruktur turizm məhsulunun keyfiyyətinin təmin edilməsinə və həyata keçirilməsinə birbaşa təsir göstərməklə yanaşı, dəyərini də müəyyən edir. Onun formalaşması sayəsində turizm ehtiyatlarının daha intensiv inkişafı baş verir, destinasiyanın cəlbediciliyi artır, iqtisadi, sosial-mədəni sahənin inkişafına zəmin yaranır. Bütün bunları nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Turizm Departamenti Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun işçi qrupu ilə birlikdə Naxçıvan iqtisadi rayonu üzrə turizmin inkişaf planının hazırlanması, turizm və rekreasiya zonalarının yaradılması, müxtəlif turizm növlərinin inkişafına dair layihələrin və turizm atlasının hazırlanması, muxtar respublikanın turizm üçün əlverişli yaşayış məntəqələrinin qiymətləndirilməsi üzərində mütəmadi iş aparır. Dövlət Proqramı muxtar respublikada digər sahələrin inkişafı ilə yanaşı, turizm sahəsinin inkişafında, sözün əsl mənasında, yeni mərhələnin başlanğıcı olacaqdır.

Saleh Quluyevin sözlərinə görə artıq muxtar respublikada turizm sahəsində mövsümilik problemi aradan qaldırılıb və insanlar istirahətləri üçün təkcə yay aylarında deyil, həm də qış fəslində Naxçıvana üz tuta bilirlər. Buna görə də müsahibim qış turizminin potensialı haqqında da məlumat verərək dedi: – Muxtar respublikanın turizm potensialı müxtəlif turizm fəaliyyətləri baxımından əhəmiyyətli imkanlar yaradır. Bu səbəbdən də qış turizminin keyfiyyətli və rəqabətədavamlı turizm məhsuluna inteqrasiyası istiqamətində bir sıra işlər həyata keçirilir. Muxtar respublikada qış turizm bazasının yaradılması mövsümilik anlayışını aradan qaldırmaqla dayanıqlı turizmə nail olmağa şərait yaradır. Bir çox dünya ölkələrində qaynar turizm mövsümü kimi yay fəsli qəbul edilsə də, sərt qış aylarının yaratdığı üstünlüklərdən yararlanaraq istirahətini təşkil etmək istəyənlərin də sayı az deyil. Turizmin inkişafı baxımından əlverişli şəraitə malik diyarımızda, xüsusilə Şahbuz rayonunun Ağbulaq kəndində yaradılan istirahət guşəsi göstərir ki, Naxçıvan qış turizminin təşkili baxımından əlverişli imkanın olduğu bölgələrdəndir. Ağbulaq kəndi zəngin bitki örtüyü və təmiz havadan ibarət resurs dəyəri ilə Naxçıvanın turizm coğrafiyasında əhəmiyyətli və cəlbedici yaşayış məntəqəsidir. Naxçıvanda qış turizmi ilə bağlı üz tutulan əsas ünvan da Ağbulaq İstirahət Mərkəzidir.








Şahbuz dağlarının qoynunda yerləşən bu mərkəz qış aylarında dağ-xizək, yay aylarında isə kənd turizmini seçənlərə xidmət göstərir. Kəndin gözəl təbiəti, səfalı yerləri insanların bura axınına şərait yaradır. Muxtar respublikada inkişaf edən turizm sektoruna böyük töhfə olan Ağbulaq İstirahət Mərkəzi qış-yay turizmi üçün unikal məkandır. Mərkəzdə xizək sürməyə marağı olmayan qonaqların digər əyləncələrdən istifadə etməsi üçün futbol, basketbol və voleybol meydançaları, uşaq əyləncə parkı yaradılmış, qonaqlar üçün ATV motor turları, divara dırmanma xidmətləri təşkil olunur. Mərkəzin ərazisində yüksək zövqlə dizayn edilmiş bar, kafe və restoranlar fəaliyyət göstərir. Bəhs edilən ictimai iaşə obyektlərində qonaqlara milli mətbəximizə xas yeməklər təqdim olunur. Burada inşa edilən hotel istirahət məkanında qonaqların rahat gecələmələrinə imkan verib.

Ağbulaq təkcə turizm mərkəzi deyil, eyni zamanda ölkəmizin zəngin təbiətinin təbliğində mühüm rol oynayır. Bu isə ölkənin turizm sənayesində Ağbulaq İstirahət Mərkəzinin əhəmiyyətini daha da artırır.

Məlumdur ki, turistlər idmanla məşğul olmaq, təmiz dağ havası qəbul etmək və adrenalin axtarmaq kimi səbəblərdən qış turizmi fəaliyyətlərinə ehtiyac duyurlar. Ağbulaq Xizək Mərkəzində də qış turizmi mövsümü ilə əlaqədar dağ-xizək turizmi həvəskarları üçün əlverişli şərait mövcuddur. Bu baxımdan mərkəzə daha çox turistin cəlb olunması və yerli qonaqların mərkəzin imkanlarından daha rahat yararlanması üçün həftə sonları muxtar respublikada fəaliyyət göstərən turoperatorlar tərəfindən sərfəli qiymətlərə turlar təşkil olunur.

Saleh Quluyevin sözlərinə görə bu gün muxtar respublikamızda qış turizmi üçün əlverişli imkanlar mövcuddur. İnsanlar qış aylarında istirahətini mənalı keçirmək üçün Naxçıvan şəhərindən çox da uzaqda olmayan məkanlara üz tuturlar. Bu baxımdan Şahbuz, Culfa, Ordubad rayonlarının dağlıq və dağətəyi yerlərində qış mənzərələri fonunda istirahətlərini təşkil etmək istəyənlər üçün əla fürsətlər var. Hətta insanlar ilk qarın sevincini Batabat yaylağında yaşamağa böyük üstünlük verirlər. Onu da qeyd etməliyik ki, turizmin inkişafı yüksək səviyyədə qurulan infrastrukturla yanaşı, sabitliklə də sıx bağlıdır. Muxtar respublikada bu iki amilin mövcudluğu, turizmin inkişafı üçün əlavə üstünlüklər yaradır.

Naxçıvanda ənənəvi turizm növləri ilə yanaşı, perspektiv vəd edən turizm istiqamətləri haqqında söz açan müsahibimiz deyir ki, zəngin tarixi və mədəni irsi ilə Naxçıvan həm ənənəvi, həm də yeni yaranmaqda olan səyahət seçimlərinə xitab edən bir sıra perspektivli turizm istiqamətləri təklif edir. Naxçıvanda bir çox tarixi yerlər, o cümlədən orta əsr memarlığı ilə məşhur olan qədim Ordubad, eyni zamanda Naxçıvanın füsunkar mənzərələri təbiət həvəskarları və macəra axtaranlar üçün böyük imkanlar açır. Dağın zirvəsində yerləşən əzəmətli Əlincə qalasından mənzərəli dərələrə və isti bulaqlara qədər bölgə açıq havada gəzintilər, trekkinqlər və ekoturizm üçün füsunkar bir fon təklif edir. Bununla yanaşı, muxtar respublika ərazisində dağçılıq, fotoovçuluq, quş müşahidəçiliyi və düşərgə fəaliyyətinin təşkili üçün də geniş imkanlar mövcuddur.

Məlumat üçün qeyd edək ki, muxtar respublika ərazisində müşahidə olunan nadir quş növləri böyük maraq doğurur və bu quşlardan bəzilərinə ölkəmizin digər bölgələrində, ümumiyyətlə, rast gəlinmir. Bu amil isə, öz növbəsində, muxtar respublikada quş müşahidəçiliyi turizminin inkişafına böyük stimul yaradır.

Qədim diyarda tarixi-mədəni abidələrin zənginliyini nəzərə alaraq arxeoturizm, Batabat Astrofizika Rəsədxanası ətrafında astroturizm, yüksək dağlıq ərazilərdə yamac paraşütü, mürəkkəb relyefə malik ərazilərdə dağ skuteri və velosipedlərindən, yolsuzluq avtomobillərindən istifadə və sair fəaliyyət növlərinin inkişaf imkanları vardır. Müalicəvi mineral və isti bulaqları ilə də Naxçıvan sağlamlıq turizmi üçün gözəl imkanlar təqdim edir. İstirahət etmək və gəncləşmək istəyən səyahətçilər bölgənin təbii müalicəvi resurslarından yararlanaraq SPA müalicələri və sağlamlıq proqramları ilə özlərinin qayğısına qala bilərlər.

Mədəni tədbirlər və festivallar Naxçıvanın nadir irsini tərənnüm edir. Ənənəvi musiqi, rəqs və sənətkarlıq nümunələrini nümayiş etdirən bu tədbirlər turistlərə yeni təcrübə təqdim edərək onlara yerli ictimaiyyətlə ünsiyyət qurmağa və çoxəsrlik ənənələrdə iştirak etməyə imkan verir.

*Göründüyü kimi, Naxçıvanımızda turizmin bir çox növləri üzrə geniş imkanlar mövcuddur. Yuxarıda adıçəkilən Dövlət Proqramının uğurlu icrası isə bu sahədə yeni imkanların təqdim olunmasına şərait yaradacaq.*

✍ **Bülbül QULİYEVA**

### *İtmişdir*

Şərur rayonunun Yengicə kənd sakini Fətullayev Cəmşid Məhəmmədəli oğlunun adına verilmiş JN-433A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Çomaxtur kəndində yaşamış Əsgərov Əli Həbib oğlunun adına olan JN-48 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 744